Mediasiya Şurasının
2020-ci il 15 aprel tarixli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# MEDİATORLARIN DAVRANIŞI İLƏ BAĞLI REQLAMENT

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Hazırkı reqlament "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 20.1.5-ci maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli, 384 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış Qaydası"na və Mediasiya Şurasının nizamnaməsinin 6.14.4-cü maddəsinə uyğun olaraq, "Mediatorlar üçün Avropa Davranış Qaydaları" və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) "Mediasiya xidməti göstərən şəxslər üçün Avropa Davranış Qaydaları" əsasında hazırlanmışdır və peşəkar əsasda mediasiya fəaliyyəti ilə məşğul olan şəxslərin etik davranış qaydalarını, prinsiplərini və digər əlaqəli münasibətləri tənzimləyir.

1.2. Bu Reqlamentin məqsədi mediatorların və mediasiya təşkilatlarının nüfuzunu və vətəndaşların mediatorlara və mediasiya təşkilatlarına etimadını artırmaqla mediasiya xidmətlərinin keyfiyyətliliyinin təmin edilməsidir.

1.3. Bu Reqlament Mediasiya Şurasına üzv olan bütün mediatorlara və mediasiya təşkilatlarına şamil olunur.

## 2. ETİK DAVRANIŞ STANDARTLARI

2.1. Hər bir mediator bu Reqlamentin müddəalarına və ya fəaliyyət göstərdiyi müvafiq mediasiya təşkilatı tərəfindən müəyyən edilmiş hər hansı daha yüksək standartlara əməl etməyə borcludur.

2.2. Hər bir mediasiya təşkilatı mediatorlarının bu Reqlamentin müddəalarına əməl etməsini təmin etmək məqsədi ilə müvafiq mexanizmlər tətbiq etməlidir.

## 3. MEDİATORLARIN MÜSTƏQİLLİYİ

3.1. Mediator müstəqilliyinə təsir edən və ya təsir edə biləcək, maraqlar toqquşmasına səbəb olan və ya səbəb ola biləcək halları açıqlamadan mediasiya prosesinə başlaya bilməz. Belə hallar mediatora mediasiya prosesi başladıqdan sonra məlum olarsa, mediator belə halları açıqlamadan bu prosesə davam edə bilməz. Mediator mediasiya prosesi ərzində və sonradan maraqlar toqquşmasının yaranmasından və ya maraqlar toqquşması olduğuna dair təəssürat yaratmaqdan çəkinməlidir.

3.2. Mediator aşağıdakı məlumatlar da daxil olmaqla, onun qərəzsizliyinə və ya müstəqilliyinə təsir edə biləcək və ya mediatorun və ya mediasiya təşkilatının bir tərəfə qarşı qərəzli və ya tərəfkeş olduğu barədə təəssürat yarada biləcək faktların, maraqların və ya münasibətlərin mövcudluğu barədə məlumatları açıqlamalıdır:

3.2.1. tərəflərdən biri, hüquqi şəxs olduqda, onların iştirakçıları, vəzifəli şəxsləri, işçiləri, məsləhətçiləri, vəkil və nümayəndələri ilə istənilən şəxsi və ya işgüzar münasibətlər;

3.2.2. mediasiya prosesinin nəticəsinə hər hansı birbaşa və ya dolayı maliyyə və ya digər maraq;

3.2.3. tərəflərdən hər hansı birinin və ya onların vəkil və ya nümayəndələrinin mediatorun fəaliyyət göstərdiyi mediasiya təşkilatında birbaşa və ya dolayı maddi marağı;

3.2.4. mediatorun, onun fəaliyyət göstərdiyi mediasiya təşkilatının və ya təşkilatın digər əməkdaşının tərəflərdən biri üçün mediatorluqdan başqa hər hansı digər bir formada fəaliyyət göstərmiş olması; və

3.2.5. mediatorun qərəzsizliyinə və ya müstəqilliyinə təsir edə biləcək və ya mediatorun və ya mediasiya təşkilatının bir tərəfə qarşı qərəzli və ya tərəfkeş olduğu barədə təəssürat yarada biləcək digər faktlar, maraqlar və ya münasibətlər.

3.3. Belə hallarda mediator tam qərəzsizliyi təmin etmək üçün yalnız mediasiya prosesini tamamilə müstəqil və bitərəf apara biləcəyinə əmin olduqda və tərəflər buna açıq

şəkildə icazə verdikdə mediasiya prosesinə başlaya və ya mediasiya prosesini davam etdirə bilər.

3.4. Mediasiya təşkilatının işçiləri, iştirakçıları, aidiyyəti şəxsləri və mediatorları mediasiyada baxılan mübahisə bitmədən və ya həmin mübahisə bitdikdən sonra ağlabatan müddət ərzində həmin mediasiya təşkilatı tərəfindən barəsində mediasiya prosesi aparılmış mübahisənin tərəfləri arasında eyni və ya əlaqəli mübahisədə tərəflərdən birinin vəkili və ya məsləhətçisi ola bilməz və ya mübahisənin həllində hakim və ya arbitr kimi çıxış edə bilməzlər.

3.5. Mediatorların fəaliyyət göstərdikləri mediasiya təşkilatı tərəfindən bu cür prosedurlar müəyyənləşdirilməyibsə, mediatorlar potensial maraqlar toqquşmasını aşkar etmək və aradan qaldırmaq üçün prosedurlar müəyyənləşdirməlidir. Mediator istənilən şəxsin ağlabatan mühakimə əsasında mediator üçün potensial və ya faktiki maraqlar toqquşmasına səbəb olacağını düşündüyü faktların olub-olmamasını müəyyənləşdirmək üçün ağlabatan araşdırma aparmalıdır.

3.6. Mediasiya prosesindən sonra mediator mediasiya prosesində iştirak edən şəxslərdən heç biri ilə mediasiya prosesinin dürüstlüyünə şübhə yarada biləcək hər hansı mövzuda digər bir münasibət qurmamalıdır. Mediasiya prosesindən sonra mediator mediasiya prosesində iştirak edən tərəflərlə, digər şəxslərlə və ya təşkilatlarla şəxsi və ya işgüzar münasibətlər qurduqda, bu cür münasibətlərin ehtimal olunan və ya faktiki maraqlar toqquşmasına səbəb olub-olmayacağını qiymətləndirərkən mediasiya prosesindən sonra keçən müddət və qurulan münasibətlərin təbiəti kimi meyarları nəzərə almalıdır.

3.7. Mediator xidmət haqqını onun müstəqilliyinə və qərəzsizliyinə xələl gətirəcək şəkildə müəyyən etməməlidir. Mediator xidmət haqqının məbləğini barışıq sazişi nəticəsində əldə olunması ehtimal olunan məbləğdən asılı və ya onunla əlaqəli olaraq müəyyənləşdirə bilməz.

3.8. Azərbaycan Respublikasının qanunvericiliyi və ya tərəflərin razılığı ilə başqa hal nəzərdə tutulmamışdırsa, mediator mübahisə ilə əlaqəsi olmayan dövlət və yerli özünüidarəetmə orqanlarının tərəflərin razılığı olmadan mediasiya prosesinə müdaxilə etməsinin qarşısını alır.

## 4. MEDİATORLARIN QƏRƏZSİZLİYİ

4.1. Mediator mediasiya prosesindən əvvəl və ya mediasiya prosesi ərzində qərəzsiz olduğunu təsdiqləməli, hər zaman tərəflərə münasibətdə qərəzsiz hərəkət etməli, qərəzsiz olduğunu göstərməyə çalışmalı və mediasiya prosesi ilə əlaqədar tərəflərə bərabər şəkildə münasibət göstərməlidir. Qərəzsizlik dedikdə tərəfkeşlikdən, qeyri-obyektivlikdən və tərəflərdən hər hansına birinə qarşı qərəzdən azad olmaq başa düşülür.

4.2. Mediator şəxsi xüsusiyyətlərinə, keçmişinə, dəyərlərinə, inanclarına, mediasiya prosesi ərzindəki davranışına və ya istənilən digər səbəbə görə mediasiyada iştirak edən şəxslərə qarşı tərəfkeş və ya qərəzli hərəkət edə bilməz. Mediator mediasiya prosesini qərəzsiz şəkildə apara bilməzsə, mediasiya prosesini aparmaqdan imtina etməlidir.

4.3. Mediator hədiyyə, imtiyaz, borc və ya mediatorun faktiki və ya ehtimal olunan qərəzsizliyi barədə şübhə yarada biləcək digər dəyərli nemətləri tərəflərə təklif edə və ya onlardan qəbul edə bilməz.

## 5. MƏXFİLİK

5.1. Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərindən irəli gələn hallar və ya tərəflərin razılaşdığı digər şərtlər istisna olmaqla, mediator mediasiya prosesi ərzində əldə etdiyi bütün məlumatların məxfiliyini qorumalıdır.

5.2. Tərəflər mediasiya prosesi ərzində əldə olunan məlumatların mediator tərəfindən açıqlanmasına razılıq verdiyi halda, mediator belə məlumatları açıqlaya bilər.

5.3. Mediator tərəflərin mediasiya prosesi ərzində davranışı haqqında mediasiyada iştirak etməyən şəxslərə məlumat verə bilməz. Mediator Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda, tərəflərin mediasiya sessiyalarında iştirak edib-etməməsi və ya mediasiya nəticəsində barışıq sazişinin əldə edilib-edilməməsi barədə məlumat verə bilər.

5.4. Mediator mediasiya fəaliyyəti ilə əlaqədar qiymətləndirmə, araşdırma və ya tədqiqatda iştirak edərsə, tərəflərin anonimliyini qorumalı və məxfiliklə bağlı ağlabatan gözləntilərinə cavab verməlidir.

5.5. Məlumatları açıqlayan şəxsin razılıq verdiyi hallar istisna olmaqla, mediator tərəflərin hər biri ilə ayrı-ayrılıqda keçirilən danışıqlar ərzində əldə etdiyi məxfi məlumatları birbaşa və ya dolayı yolla digər tərəfə açıqlaya bilməz.

5.6. Mediator tərəflərə mediasiya ərzində əldə etdikləri məlumatların məxfiliyini hansı dərəcədə qorumalı olduqlarını izah etməlidir.

5.7. Mediasiyanın şərtlərindən asılı olaraq, tərəflərin məxfiliklə bağlı mediatordan tələbləri müxtəlif ola bilər. Məxfiliklə əlaqədar tələblər tərəflərin qarşılıqlı razılığı, həmçinin, mediatorun və ya mediasiya təşkilatının tərəflərin birbaşa razılıq verdiyi müvafiq qaydaları ilə müəyyən edilə bilər.

## 6. KÖNÜLLÜLÜK

6.1. Mediator mediasiya prosesini könüllülük prinsipi əsasında aparmalıdır. Könüllülük dedikdə hər bir tərəfin prosesin gedişatı və nəticəsi ilə bağlı azad və məlumatlı şəkildə seçimlər etməsi nəticəsində könüllü və heç bir məcburiyyət olmadan qərar qəbul etməsi başa düşülür. Tərəflər, Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, mediatorun seçilməsi, prosesin təşkili, prosesdə iştirak, prosesin dayandırılması və prosesə xitam verilməsi mərhələləri də daxil olmaqla, mediasiya prosesinin istənilən mərhələsində könüllülük əsasında hərəkət edir.

6.2. Mediator könüllülük prinsipi ilə mediatorun bu Reqlamentə uyğun olaraq keyfiyyətli mediasiya aparmaq vəzifəsi arasında tarazlıq yaratmalıdır.

6.3. Mediator şəxsən hər bir tərəfin müəyyən qərar qəbul etmək üçün azad və məlumatlı şəkildə seçim etdiyindən əmin ola bilməzsə, zərurət olduqda, tərəflərə məlumatlı şəkildə seçim etməkdə kömək etmək üçün digər mütəxəssislərə müraciət etməyin vacibliyini bildirməlidir.

6.4. Digər şəxslərin mediasiya prosesində iştirak edib-etməməsi tərəflərlə mediator arasında olan razılaşmadan asılıdır. Mediator və tərəflər digər şəxslərin bütün sessiyalarda və ya müvafiq sessiyalarda iştirak edib-etməməsi barədə razılığa gələ bilərlər.

## 7. PEŞƏKARLIQ VƏ KEYFİYYƏT

7.1. Mediator mediasiya prosesini bu Reqlamentə uyğun şəkildə, habelə, peşəkarcasına, vaxtında, tərəflərin etimadını və müvafiq tərəflərin iştirakının təmin etməklə, tərəflərin lazimi səviyyədə iştirakı, prosesual bərabərlik, təhlükəsizlik və tərəflər arasında qarşılıqlı hörmət şəraitində aparmalıdır.

7.2. Mediator mediasiya prosesini aparmağı yalnız effektiv mediasiya üçün lazımi diqqət göstərməyə hazır olduqda və tərəflərin mediasiya prosesinin müddəti ilə bağlı ağlabatan gözləntilərinə cavab verə biləcəyi təqdirdə qəbul etməlidir.

7.3. Mediator mübahisənin həllində mediator qismində təyin edilməyi qəbul etməzdən əvvəl bu cür mediasiyanı aparmaq üçün peşəkarlığının və təcrübəsinin olması barədə özü qane olmalı və tələb edildikdə, bu sahədə peşəkarlığı, tərcümeyi-halı və təcrübəsi haqqında tərəflərə məlumat verməlidir.

7.4. Mediator bütün iştirakçılar arasında dürüstlük və səmimiyyəti təşviq etməli və mediasiya ərzində hər hansı əhəmiyyətli faktı və ya şəraiti qəsdən təhrif etməməlidir.

7.5. Mediator apardığı fərqli bir prosesi mediasiyanın qanunvericiliklə nəzərdə tutulmuş üstünlüklərindən istifadə etmək məqsədilə mediasiya adlandıra bilməz.

7.6. Mediator, zərurət olduqda, tərəflərə mübahisəni arbitraj, ekspert qərarı, ilkin neytral qiymətləndirmə və digər proseslər vasitəsi ilə həll etməyi tövsiyə edə bilər.

7.7. Tərəflərin bu barədə məlumat aldıqdan sonra razılıq verdiyi hallar istisna olmaqla, mediator eyni mübahisənin həlli üçün başqa bir vəzifədə çıxış edə bilməz. Bu cür xidmət göstərməzdən əvvəl mediator prosesdəki dəyişikliklərin nəticələri barədə tərəfləri məlumatlandırır və onların razılığını alır.

7.8. Əgər mediasiya cinayət törətmək üçün istifadə olunursa, mediator, zərurət olduqda, mediasiya prosesini təxirə salmaq, mediasiya prosesini davam etdirməkdən imtina etmək, mediasiya prosesinə xitam vermək və ya qanunvericilikdə nəzərdə tutulan hallarda müvafiq dövlət orqanlarına məlumat vermək də daxil olmaqla, müvafiq addımlar atmalıdır.

7.9. Tərəf mediasiya prosesini, müzakirə edilən məsələləri, mübahisənin həlli variantlarını anlamaqda və mediasiya prosesində iştirak etməkdə çətinlik çəkirsə, mediator bu çətinliklərin aradan qalxması, həmin tərəfin mediasiya prosesində lazımi səviyyədə iştirak etməsi və qərar verə bilməsi üçün zəruri olan şəraiti, potensial dəyişiklikləri və düzəlişləri təmin etməyə çalışmalıdır.

7.10. Mediatorlar və mediasiya təşkilatları aşağıdakıları təmin edərək, xidmətlərin keyfiyyətində və peşəkarlığında adekvat səviyyəni təmin etmək üçün bütün ağlabatan addımları atmalıdırlar:

7.10.1. Kifayət qədər maliyyə və idarəetmə imkanlarına malik olmalıdır;

7.10.2. Mediatorlar bütün tərəflərin razılığı olmadan və müvafiq təhsili və ya təcrübəsi olmadığı mövzularda fikir bildirməməlidir;

7.10.3. Müştəri məmnuniyyəti sorğularından istifadə edərək mediasiya təşkilatı və mediatorlarının adekvat və səmərəli fəaliyyətini təmin etmək üçün monitorinq tətbiq olunmalıdır;

7.10.4. Əsas göstəricilər üzrə statistik məlumatlar toplanmalıdır;

7.10.5. Katibliyində və ya işlərin idarəetməsində olan işçilərə bütün mediasiya prosesi ərzində mediatora və tərəflərə kömək etmək üçün lazimi qaydada təlim keçirilməlidir;

7.10.6. Tərəflərin mediasiya xidmətlərindən istifadə etmək üçün sorğuları internet və ya hər hansı digər rabitə vasitəsi ilə göndərməklə asanlıqla xidmətlərdən istifadə edə bilməsini və prosesdə iştirak edə bilməsini təmin etməlidir;

7.10.7. Müvafiq keyfiyyətə nəzarət sistemi mövcud və işlək olmalıdır.

## 8. TƏBLİĞAT VƏ REKLAM İŞLƏRİ

8.1. Mediator mediasiyanın inkişafı və mübahisədə olan insanlara daha yaxşı xidmət edə bilmək üçün bu sahədə fərqli düşüncələrə hörmət nümayiş etdirməli, digər mediatorlardan öyrənməyə çalışmalı və digər mediatorlarla əməkdaşlıq etməlidir. Mediator müxtəlif mövqelərin mövcudluğunu nəzərə almadan və ya mediatorluq peşəsinin müstəqilliyinə, qərəzsizliyinə və nüfuzuna mənfi təsir edəcək qərəzli və ya qeyri-obyektiv açıqlamalar verməkdən çəkinməlidir.

8.2. Mediatorlar öz təcrübələrini peşəkar, dürüst və ləyaqətli yollarla reklam edə bilərlər. Mediator reklam edərkən və ya digər şəkildə məlumat verərkən öz xüsusiyyətləri, təcrübəsi, xidmətləri və xidmət haqları barədə dürüst olmalı və yanıldıcı olmamalıdır.

8.3. Mediator televiziya, radio, vizit kartlar, internet və digər vasitələrindən istifadə edərkən mediasiya prosesinin nəticəsi ilə bağlı söz verməməlidir.

8.4. Mediator yalnız Mediasiya Şurasının üzvü olduğunu və ya rəsmi mediasiya təşkilatı, publik təşkilatlar və ya beynəlxalq təşkilatlar tərəfindən mediator kimi işə götürüldüyünü və ya təyin edildiyini iddia edə bilər.

8.5. Mediator xidmət göstərdiyi şəxslərin icazəsi olmadan onların adlarından reklam vasitələrində və ya digər rabitə vasitələrində istifadə edə bilməz.

## 9. ŞƏFFAFLIQ

9.1. Bu barədə məlumat daha əvvəl verilməmişdirsə, mediator mediasiya prosesinə dair xərclər barədə mediasiya prosesi başlamazdan əvvəl tərəflərə tam şəkildə məlumat verməlidir.

9.2. Mediatorlar və ya onların fəaliyyət göstərdikləri mediasiya təşkilatları aşağıdakılar barədə, dəqiq və asan başa düşülən məlumatlar verilməsi üçün müasir və asan istifadə edilən veb-sayta və ya digər vasitələrə sahib olmalıdır:

9.2.1. ad, yenilənmiş dəqiq tərcümeyi-hal və mediatorun təhsili və təcrübəsi;

9.2.2. mediasiya prosesi, mediasiya qaydaları və mediasiya prosesinə təqbiq olunan müvafiq qanunvericilik və qaydalar;

9.2.3. mediasiya xərcləri, hesablanma meyarları və tərəflər arasında bölüşdürülməsi qaydası;

9.2.4. mediatora tətbiq olunan davranış qaydaları.